**UOT 316.93/.99**

# POST-MÜHARİBƏ VƏ YA SÜLH MƏRHƏLƏSİNİN SOSİOLOGİYASI

**Zümrüd HÜSEYNOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 24 iyun 2023; çapa qəbul edilmişdir: 28 iyul 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 24th of June, 2023; accepted: 28th of July, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *sosial tarix, müharibə, post-müharibə, sülh, sosial rifah, ədalət, ədalətli müharibə, ədalətsiz müharibə*

## Giriş

Bəşər cəmiyyətinin davamlı fəaliyyət forması kimi səciyyələndirilən müharibələrin sosioloji əsaslarda araşdırılması xüsusi aktuallıq kəsb edir. Belə ki, sosial rifahın yaxşılaşdırılmasını başlıca məqsədə çevirən insanlıq məhz bu məqsəd uğrunda müharibə və münaqişələr apararaq yüz minlərlə insan həyatını, yüzlərlə dövlətləri və cəmiyyətləri yoxsulluğa və məhvə məhkum edir.

Müharibə və post-müharibə, yaxud sülh dövrünün sosioloji araşdırılması bu anlayışlarla bağlı tədqiqatlara nəzər salmağı zəruri edir.

Post-müharibə və ya müharibədən sonrakı dövr dağıdılmış iqtisadiyyatın bərpası, artıq müharibə təcrübəsinə malik yeni sosial münasibətlərin qurulması, siyasi təhlükəsizlik və siyasi əlaqələrin yenidən bərpası və s. kimi səciyyələndirilə bilər. Müharibədən qalib çıxmış tərəf, həm də çox böyük itkilərə malik olan tərəfdir. Müharibə nəticəsində tənəzzül etmiş iqtisadiyyatın yenidən dirçəldilməsi böyük maddi imkanlar, kapital yatırımları tələb edir. Digər tərəfdən müharibə nəticəsində yaranmış və miqyası genişlənmiş miqrantlar, müharibə iştirakçıları kimi həssas sosial qruplar xüsusi diqqət tələb edir. Post-müharibə dövrü bütövlükdə həssaslaşmış cəmiyyət dövrüdür. Bu cəmiyyət ölkə daxilində baş verən bütün hadisə və proseslərə daha asi münasibətdə olur. Daxili sosial siyasətin tənzimlənməsi ilə yanaşı post-müharibə hökuməti beynəlxalq siyasi münasibətlərdə öz yerini müəyyənləşdirməyə, möhkəmləndirməyə və əlaqələrini genişləndirməyə çalışır.

Qeyd edilən məsələlər post-müharibə dövrünün xüsusi elmi tədqiqata cəlb edilməsini aktuallaşdırır. Müharibə fenomeninin və onun sosial və siyasi nəticələrinin araşdırılması qədim tarixə malikdir. Müharibə aparan ölkələrin düşünən insanları, mütəfəkkirləri müharibələrin qarşısının alınması, post-müharibə dövründə yeni sosial-siyasi inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, sülh, əmin-amanlıq, ədalət məfhumlarının sosioloji əsaslarını təhlil etmişlər. Müharibə haqqında ilkin tədqiqatların araşdırılması müasir müharibə və post-müharibə şəraitinə yeni rakursdan baxmağa, dərk etməyə və nəticə olaraq strateji yanaşmalar formalaşdırmağa əsas yarada bilər. Müharibədən sonrakı dövr üçün müasir beynəlxalq inkişafın imkanlarını nəzərə alan strategiya bu dövrə xas olan çətinliklərin aradan qaldırılması mərhələsinin ziddiyyətlərini bir qədər yumşaldacaq və tərəqqinin yeni istiqamətlərinin müəyyənləşdirilməsinə kömək edəcəkdir. Fəlsəfi və sosioloji fikrin bütün mərhələlərində mütəfəkkirlər münaqişə və sabitliyi daim bir-birini

* *doktorant, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu*
e-mail: zumrud.huseynova2023@gmail.com

əvəzləyən, həmçinin inkişafın mənbəyi olan proses kimi səciyyələndirmişlər. Brian Orendin dediyi kimi, "*Müharibə siyasi icmalar arasında geniş miqyaslı silahlı münaqişədir; əslində baş verən və qəsdən başlayan münaqişə*" [19, s. 2].

**Müharibə və sülh haqqında konsepsiyalar: qədim dövr**

Hələ qədim Çin mənbələrində müharibənin sosial fəlsəfi istiqamətdə öyrənilməsi cəhdi məlumdur. Hələ e.ə. IV-III əsrlərdə Daos məktəbinin nümayəndələri müharibəni iki istiqamətdə: hərbi-fəlsəfi və hərbi-ixtisaslaşmış – analiz etmişlər. Hərbi-fəlsəfi istiqamətdə müharibənin mənbələri, onun insan cəmiyyətinin həyatından uzaqlaşdırılması, müharibələrin təsnifatı və əxlaqi dəyərləndirilməsi məsələləri ayrı-ayrı filosoflar tərəfindən təhlil edilmişdir. Daos məktəbinin üzvləri müharibə nəticəsində yaranan xaos və nizamsızlıq məsələlərinin təhlilinə xüsusi diqqət ayırmışlar. Onlar belə güman edirdilər ki, müharibə və münaqişələr insanın ziddiyyətli təbiətindən doğur və sosial sabitlik nə vaxtsa mütləq şəkildə pozulur. Belə demək olar ki, təkamül ziddiyyətli xarakterə malikdir və dağıntılarla müşayiət edilərək təkmilləşir.

Eyni zamanda daosçular əmindirlər ki, insan ehtirasları müharibənin başlıca amili kimi çıxış edir: "*Arzu etmək ehtimalından daha böyük cinayət yoxdur; ehtirasın hüdudlarını bilməməkdən böyük bədbəxtlik yoxdur; və sərvət arxasınca düşməkdən daha böyük təhlükə yoxdur*" [21, s. 138-139]. Məhz arzular, ehtiras və dünyagirlik münaqişə və müharibələrin yaranmasına səbəb olur. Beləliklə, mütəfəkkirlər müharibə və sülhü əxlaqi baxımdan qiymətləndirirlər.

Müharibənin nəzəri araşdırılması ilə məşğul olan antik filosoflar da onun etik əsaslarının təhlilinə xüsusi diqqət ayırmışlar. Platon "Fedon", "Dövlət", "Qanunlar" və digər dialoqlarında ədalətli və ədalətsiz müharibələr haqda danışır və göstərir ki, ədalətsiz müharibələr insanın natamam təbiətindən, onun var-dövlət və zövq almaq hərisliyindən doğur [16, s. 157-159]. Platon müharibəni əxlaqi proses kimi qiymətləndirməklə yanaşı, onun qarşısının alınması üçün insanlarda inkişaf etdirilməli olan dəyərlər haqda mülahizələr irəli sürür.

Aristotel "Siyasət" və "Nixamor etikası" adlı əsərlərində müharibəyə münasibətini ifadə etməklə yanaşı, onun mahiyyətini açıqlamağa çalışır. Aristotelə görə, insan həyatının məqsədi xoşbəxtliyə nail olmaqdır. Aristotel müharibəyə başlayarkən qarşıya qoyulan mümkün məqsədləri belə təsnif edir: bəzi hallarda - əmlakı ələ keçirmək, digərlərində - qələbə qazanmaq, üçüncüsü - şəhəri ələ keçirmək. Bu məqsədlər bir məqsədə xidmət edir - xoşbəxtliyə nail olmaq. Müharibənin yeganə ədalətli məqsədi isə sülh arzusudur [4, s. 275-277].

Antik dövr filosofları kimi orta əsr mütəfəkkirləri də, ədalətli müharibə fikrini inkişaf etdirirlər. Orta əsrlər mütəfəkkirlərindən Avqustin Avreliy öz mövqeyini dini baxımdan izah edir. O, *"...dağıntılar, qətllər, quldurluqlar, yanğınlar, iztirabları" müharibənin mahiyyəti kimi göstərir. Avqustinə görə, insanlar "...sülh üçün müharibəyə" gedirlər. Müharibəni Allahın pis adamları cəzalandırma vasitəsi kimi izah edən Avreliy Avqustin bildirir ki, "nə üçün pislərlə yanaşı ...yaxşılar da əziyyət çəkirlər. Birlikdə pis həyat sürdüklərinə görə deyil, birlikdə müvəqqəti həyatı sevdiklərinə görə cəzalandırılırlar...*" [6, s. 132-133].

**Orta əsrlər fəlsəfəsində müharibə mövzusu**

Orta əsrlər fəlsəfəsində müharibə mövzusu bir çox mütəfəkkirlərin tədqiqat obyekti olmuşdur. Şərqin görkəmli mütəfəkkiri əl-Farabinin müharibə haqqında konsepsiyası xüsusi maraq doğurur. Mütəfəkkir müharibəni müdafiə məqsədli, hücum məqsədli, təcavüz məqsədli olaraq iki qismə ayırır [1, s.167-180]. əl-Farabi fəzilətli dövlət və cəmiyyət haqqındakı konsepsiyasında əmin-aman yaşayış tərzini insanların əxlaqi inkişaf

səviyyəsilə izah edir.

Orta əsrlət ərəb filosofları arasında xüsusi yeri olan İbn Rüşd özünün ideal dövlətə dair konsepsiyasında müharibə haqqında fikri inkişaf etdirmişdir. Dövlətləri iki hissəyə – ideal və antidövlətlərə bölən İbn Rüşd göstərir ki, hakimiyyətə cəhd bütün dövlət formalarına xasdır və hakimiyyət arzusu müharibələri qaçınılmaz edir. İbn Rüşd əmindir ki, fəzilət və hikmət ideyalarının yayılması üçün istənilən cahil şəraitdə müharibə vasitəsilə ideal siyasi sistem qurmaq mümkündür. Azmış şəhərlərdə mənəvi deqradasiyanı dayandırmaq və ideal dövlət qurmaq üçün "ədalətli müharibə" aparmaq, islamın ehkamlarına söykənən fəzilətli şəhərlər və dövlətlər qurmaq mümkündür [20, s. 76-77].

Orta əsrlər ərəb mütəfəkkirləri dövlət idarəçiliyi və müharibə aparılması sənəti ilə bağlı təhlillərində islam idarəçiliyi formasını tətbiq etməyi nəzərdə tuturdularsa, Qərb filosofları xristianlıq dinin ehkamları üzərində qurulacaq ilahi dövlət haqda konsepsiyalar irəli sürürdülər.

Orta əsrlər Qərb fəlsəfəsinin görkəmli simalarından olan Foma Akvinski xristian dövləti haqqındakı konsepsiyasında – "müharibə ədalətli ola bilərmi?" – sualına cavab axtarır. Müharibəni ağır günah hesab edən Foma Akvinski fikrini belə izah edir: "...müharibə ...günah olmasaydı, cəza da olmazdı. Lakin "Müqəddəs Yazılarda" deyildiyi kimi, müharibə edənlər üçün Rəbb cəza vəd etdi: "*Qılınc götürən hər kəs qılıncla həlak olacaq". Ona görə də bütün müharibələr qanunsuzdur*". Foma Akvinski "ədalətli müharibə" anlayışına dini əsaslarda şərh verir: "*Ədalətli dünya naminə müharibələr aparanlar, bəlkə də Rəbbin "yer üzünə gətirməyə gəlmədiyi" şər dünyadan başqa dünyaya qarşı çıxmırlar*" [2, s. 145-147].

Orta əsrlər müəllifləri müharibəni şər, günah iş kimi qəbul edirdilər və onun izahında dini fikirlərə söykənirdilər. Görkəmli siyasi xadim və filosof Nikolo Makiavelli "Hökmdar" əsərində müharibə və sülhün mənəvi tərəfləri arasındakı əlaqəni izah edərkən göstərirdi ki, müharibə cinayətkarlar doğur. O qeyd edirdi ki, ölkənin təhlükəsizliyinin əsasını "yaxşı qanunlar və yaxşı ordu" təşkil edir. Nikolo Makiavelli dövrünün hərbi-nəzəri fikrinin vəziyyəti və inkişafının təhlilini vermiş, orduya, onun təşkilinə, müharibəyə hazırlıq üsullarına, hərbi işin üsul və formalarına dair fikirlər təqdim etmişdir [13, s. 23-27].

Rotterdamlı Erazm qeyd edirdi ki, "müharibə onu bilməyənlər üçün şirindir", hökmdarların alçaq və eqoist keyfiyyətləri çox vaxt xalqları müharibəyə sürükləyir. E.Rotterdam "Dünyanın şikayəti" adlı traktatında insanlığın sülhə və inkişafa ehtiyacının olduğunu göstərirdi. E.Rotterdam qeyd edirdi ki, "sülh yaxşıdır, müharibə isə şərdir. Müharibənin səbəbi insanın pisliyindədir. İstənilən müharibə fəlakətlər gətirir: ölüm, sənətkarlığın tənəzzülü, ticarət, əxlaqın tənəzzülü, qanunlara etinasızlıq". E.Rotterdam istənilən müharibənin faciəvi mahiyyətini açaraq, sülhün bərqərar olması yollarını təklif edirdi [18, s. 132-135].

1539-cu ildə isə Sebastian Frank «Dünyanın döyüş kitabı" əsərini nəşr etdirdi. S.Frank deyirdi ki, "*müharibəyə qarşı müharibə yeganə müqəddəs müharibədir*". O, bildirirdi ki, müharibə təkcə Məsihin təlimlərinə zidd deyil, həm də "şeytani, qeyri-insani bir əməl, iyrənc vəba… bütün pisliklər və günahlar, yerin və ruhun, bədənin və namusun məhvi" deməkdir. Frank Müqəddəs Yazıların nüfuzuna istinad edərək, müharibənin insan əllərinin işi olduğu fikrini əsaslandırırdı. Mütəfəkkir təkcə müxtəlif xristian birliklərinə deyil, həm də yəhudilərə, müsəlmanlara, bütpərəstlərə və hətta bidətçilərə münasibətdə dini tolerantlığın müdafiəçisi idi, çünki bütün insanlar Allah tərəfindən yaradılmışdır, Adəmdən törəmişdir və Müqəddəs Ruh onlar üçün bərabər şəkildə mövcuddur.

S.Frank müharibənin legitimliyi üçün şərtləri müəyyən etmişdir:

• müharibə öz mənafeyi naminə deyil, Allahın izzətinin izzəti və ümumi rifah naminə aparılmalıdır;

• əvvəlcə hücuma keçə bilməzsən, sadəcə müdafiə olunmalısan;
• düşmənə məkrli hücuma keçərək bütpərəst şəkildə müharibə aparmaq olmaz;
• Böyük orduya arxalanmaq səhvdir, yalnız Allaha güvənmək lazımdır;
• ateistlərlə və Tanrının düşmənləri ilə ittifaqın bağlanmasına qarşı çıxmaq.

O, komandirin əmrinə tabe olmaq ədalətsiz müharibədə iştirak edən əsgərin günahını aradan qaldırmır [3, s. 98-102].

Orta əsrlər mütəfəkkirləri müharibəyə qarşı fikirlərində dini ideyalardan çıxış edirdilər və yalnız Allah uğrunda müqəddəs müharibənin mümkünlüyünü qeyd edirdilər. Əks halda müharibəni bəşəriyyət üçün böyük faciə kimi qəbul edərək, yolverilməz olduğunu sübut etməyə çalışırdılar. Bu dövr mütəfəkkirlərinin fikirləri yeni dövr filosoflarının araşdırmalarına təsirsiz ötüşməmişdir. Onlar da öz sələfləri kimi müharibəni əxlaqa zidd məhfum kimi izah edərək, ayrı-ayrı şəxslərin nəfs, tamahkarlıq və ehtiraslarının nəticəsi olaraq təzahür etdiyini göstərirdilər.

O.V.Qutoroviç və E.Y.Maşukovaya görə: "XVI əsrdən başlayaraq, əbədi sülh ideyası reallaşmağa başlayır və heç də təsadüfi deyil ki, bu İntibah və Yeni Əsr dövründə müharibə Avropa xalqları üçün getdikcə daha böyük təhlükəyə çevrilir. Müharibə "sivilizasiyası" formalaşır, bunu silahların təkmilləşdirilməsi, kütləvi orduların və hərbi koalisiyaların yaradılması, müharibənin peşəkarlaşması sübut edir. XVI və xüsusilə XVII əsrlər həm də dövlətin genişlənməsi, onun paylanması, etatlaşması prosesi (fransızcadan etat - dövlət) dövrüdür. Dövlətin əlində təkcə hərbi qüvvə cəmlənmir, o, müharibədə monopoliya yaradır. Müharibə məkanının bir növ nizamlanması və rasionallaşdırılması baş verir [11, s. 166].

Bu dövrün müharibə fəlsəfəsindəki istiqamətlərdən biri utopik "əbədi sülh" ideyasının əsaslandırılması idi. Bu mənada U.Pennin "Avropada indiki və gələcək sülh haqqında təcrübə" (1693), J.J.Russo "Əbədi sülh haqqında hökm", İ.G.Herderin "Humanizmin təşviqi üçün məktublar", İ.Benthamın "Ümumdünya və əbədi sülh planı" (1786-1789), İ.Kantın "Əbədi sülhə doğru" (1795) və s. əsərlərinin əsas ideyası xalqlar arasında yaranan münaqişələrin sülh yolu ilə həllinə kömək edəcək, təcavüzkarları cəzalandıracaq və bununla da əbədi sülhün bərqərar olmasını təmin edəcək beynəlxalq təşkilatın yaradılmasının zəruriliyini əsaslandırmaqdan ibarətdir [10].

Orta əsrlər fəlsəfi siyasi fikrinin görkəmli nümayəndələrindən olan U.Penn "Avropanın indiki və gələcək sülhlə bağlı təcrübəsi" adlı əsərində müharibə sülh şəraitinin müqayisəli təhlilini təqdim edir. O, əmin-amanlığın üstünlüklərini belə şərh edir: "*Sülh dövründə ...işğal qorxusu olmadan yaşayırıq; ticarətimiz azad və təhlükəsizdir, ...tikinti inkişaf edir, ...mənfəət və zövq üçün müxtəlif layihələr həyata keçirilir; ...sənaye çiçəklənir. Müharibə ...bütün bu nemətləri dərhal məhv edir və cəmiyyətin sivil inkişafını dayandırır. ...sənaye, tikinti, sənətkarlıq məhv olur*".

U.Penn belə hesab edir ki, "*Ədalət müharibədən yaxşıdır, sülhün qoruyucusu və daşıyıcısıdır... insanlar öz istəklərini müharibə yolu ilə təmin etməyə daha çox meyllidirlər... ...ədalət açıq şəkildə pozulduqda krallıqlarda, respublikalarda hakimiyyətlə xalq arasında müharibə başlayır. ...ədalət iqtidarla xalq, fərd və cəmiyyət arasında barışıq vasitəsidir. ...sülh ... qanunun gücü ilə qorunur, necə ki, hökumət cəmiyyət tərəfindən, cəmiyyətin özü isə qarşılıqlı razılaşma əsasında yaradılır*" [15].

XVII əsrdə hersoq Sülli IV Henriyə "Xristian Respublikası"nı – Avropanın xristian xalqlarının konfederasiyasını yaratmaq planını təklif etmişdir. Süllinin ideyaları abbat Sen-Pier tərəfindən "Avropada əbədi sülhün təmin edilməsi layihəsi"ndə inkişaf etdirilmişdir. O, bütün Avropa dövlətlərini vahid ittifaqda birləşdirməyi düşünürdü. XVI əsr – XIX əsrin əvvəllərində "əbədi sülh" ideyası humanistlər və maarifçilərin ümumbəşəri sülhün bərqərar olması ilə bağlı irəli sürdükləri konsepsiyalarda əks olunmuşdur.

**Yeni dövr fəlsəfəsində müharibə mövzusu**

J.J.Russo "Əbədi sülh haqqında mühakimələr"ində Sen-Pyerin konsepsiyasını

yüksək dəyərləndirərək göstərirdi ki, "onun həyata keçirilməsinin üstünlükləri hər bir hökmdar, hər bir xalq və bütünlükdə Avropa üçün çox böyük əhəmiyyətə malik ola bilərdi". J.J.Russo əminliklə bildirir ki, sülhə nail olmaq üçün ümumi Avropa Respublikasının yaradılması hökümdarların mənafeyinə zidd olduğu üçün belə bir respublikanın yaradılması qeyri-mümkündür. Belə ki, "bir tərəfdən müharibə və işğallar, digər tərəfdən isə dərinləşən despotizm bir-birilərinə qarşılıqlı kömək edirlər" və bununla da hökmdarların daha çox pul yığmalarına şərait yaranmış olur. J.J.Russo göstərir ki, əbədi sülh yaranarsa dövlət idarəçiləri müharibə şəraitində qazandıqları bir çox nemətlərdən məhrum ola bilərlər, buna görə də əbədi sülhün bərqərar ola biləcəyini düşünmək sadəlöhvlük olar [17, s. 162-172].

İ.Bentam müharibəni şər adlandıraraq qeyd edirdi ki, "*Pisliyin qarşısını almaq və təhrik edənləri cəzalandırmaq müharibənin gətirdiyi zərərlə müqayisədə acınacaqlı bir təsəlli, qarşısını almaq imkanı ilə müqayisədə isə boş bir işdir. Hücum müharibəsi seçim məsələsidir, müdafiə müharibəsi zərurətdir. Müharibənin davam etdirilməsindən imtina etmək, ...ən təhlükəli vasitədir*". Mütəfəkkir düşünür ki, müharibədən imtina məğlubiyyətdir, bu isə məğlub olan tərəfin talanması, asılı vəziyyətə düşməsi deməkdir. İ.Bentam ümumbəşəri və əbədi sülhün bərqərar olması məqsədinə xidmət edən "iki prinsipial təklif" irəli sürür:

"*1) Avropa Birliyinə daxil olan ölkələrin silahlı qüvvələrinin azaldılması və müəyyən səviyyədə saxlanılması;*

*2) bu və ya digər gücə münasibətdə tabe mövqedə olan bütün ölkələrə müstəqilliyin verilməsi*" [5, s. 173-205].

İ.Bentamın Avropada və bütün dünyada əbədi sülhün bərqərar olması məqsədilə təklif etdiyi müddəalar xüsusi maraq doğurur. Belə ki, müəllif işğalçı müharibələrlə yanaşı, inqilablar, müstəmləkə azadlığından xilas olmaq uğrunda mübarizələr və s. ilə bağlı öz fikrini bildirir. Müstəmləkələrdə müharibələrin olmaması üçün onlara əvvəlcədən azadlıq verilməsini təklif edir.

Ümumbəşəri və əbədi sülhün bərqərar olması tərəfdarı olan müəlliflər sırasında İmmanuel Kant fikirlərinin orijinallığı ilə seçilir. İ.Kant "Əbədi sülhə doğru" traktatında müstəmləkəçilik siyasətinə qarşı çıxaraq göstərir ki, heç bir dövlət müharibə nəticəsində digər dövlətdən asılı vəziyyətə düşməməlidir. Çünki "Dövlət, özündən başqa heç kimin əmr edə və sərəncam verə bilmədiyi insanlar cəmiyyətindən ibarətdir. Ona görə də ...cəmiyyəti başqa bir vəziyyətə yönəltmək cəhdi onun əxlaqlı şəxsiyyət kimi məhv edilməsi və əxlaqlı insanın əşyaya çevrilməsi demək olardı".

İ.Kant əbədi sülhün bərqərar olması planını təklif edirdi:

1. Əgər yeni müharibənin əsası gizli saxlanılırsa, heç bir müqavilə sülh müqaviləsi hesab edilmir.

2. Heç bir müstəqil dövlət (böyük və ya kiçik, fərq etməz) istər miras yolu ilə, istərsə də mübadilə, satınalma və ya hədiyyə nəticəsində başqa dövlət tərəfindən alınmamalıdır.

3. Daimi ordular zamanla tamamilə yox olmalıdır.

4. Dövlət borcları xarici siyasət məqsədləri üçün istifadə edilməməlidir.

5. Heç bir dövlət başqa bir dövlətin siyasi quruluşuna və idarəçiliyinə zorla müdaxilə etməməlidir.

6. Heç bir dövlət başqası ilə müharibə zamanı gələcəkdə, sülh dövründə qarşılıqlı etimadı qeyri-mümkün edəcək düşmənçilik hərəkətlərinə əl atmamalıdır, məsələn, gizli qatillər, zəhərləyicilər göndərmək, təslim olma şərtlərini pozmaq, dövlətə xəyanətə təhrik etmək və s. [12, s. 205-243].

Eyni dövrün görkəmli şəxsiyyətlərindən olan İohann Gerder müharibənin tərifini verərək qeyd edir ki: *"Müharibə, əgər məcburi özünümüdafiə deyilsə, dinc qonşu xalqa*

*qarşı ruhsuz hücumdursa, bu, yalnız hücuma məruz qalan insanlar üçün deyil, eyni zamanda onu azad edən insanlar üçün də məhv və viranlıqla təhdid edən vəhşi, ən qeyri-insani bir təşəbbüsdür. ...müharibənin yoldaşları ...özündən də dəhşətli - xəstəliklər, xəstəxanalar, aclıq, vəba, soyğunçuluq, zorakılıq, ölkənin dağılması, ailənin dağılması, neçə-neçə nəsillər boyu əxlaqın vəhşiliyidir".*

Mütəfəkkirin fikrincə, sülh – "*ümumbəşəri ədalət, insanpərvərlik, fəal ağıldır*". İ.Gerder əmindir ki, əbədi sülhə nail olmaq üçün aşağıdakı müddəalara əməl edilməlidir:

1. Müharibəyə nifrət aşılanmalıdır;
2. Hərbi şöhrətə daha az ehtiram göstərilməlidir;
3. Yalançı dövlət işinə nifrət edilməlidir;
4. Təmizlənmiş vətənpərvərlik aşılanmalıdır;
5. Başqa millətlərə qarşı ədalət hissi aşılanmalıdır;
6. Ticarət iddiaları, məhdudiyyətlər aradan qaldırılmalıdır;
7. Ağıllı fəaliyyətə yönləndirilməlidir [7, s. 243-258].

İ.Gerres müharibənin insan təbiətilə bağlı təbii əsaslarının izahını verməyə çalışaraq qeyd edir ki, "*Müharibə bölünmə halında olan millətlər arasında mövcud olan siyasi münasibətlərin dayandırılması və hərbi əlaqələrin başlamasıdır.*" Müharibəni məhv edən və insanyeyən olaraq iki qismə bölən müəllif onları belə izah edir, beynəlxalq münasibətlərin kəsilməsilə xarakterizə olunan "*məhvetmə müharibəsi adamyeyən müharibəyə çevrilir - bu, insan kin-küdurətinin, yaxud korluğunun ən yüksək səviyyəsidir. Qalib dövlət məğlub olan dövlətin vəhdətinin dağılması ilə kifayətlənməyib onun məcmusunu təşkil edən şəxslərin simasında bu dövlət daxilindəki bütün birliklər üçün məzar hazırlayır və bununla da dövlətin mənəvi şəxsiyyətini tamamilə məhv edərək, fiziki olaraq onu öz şəxsiyyətində cəmləyir*".

İ.Gerres əmindir ki, sülh dövlətlərarası münasibətlərin yenidən bərpa olunmasına cəhddir. Ümumbəşəri sülh isə insanlara xoşbəxtlik gətirməli, onların rifahına xidmət etməlidir. Yalnız müharibə və münaqişə haqda fikirlərin yer almadığı sülh həqiqi sülh ola bilər. Bəşəriyyətin idealı əbədi sülh olmalıdır [9, s. 258-315].

F.Hens özünün "Əbədi sülh haqqında" əsərində qeyd edir ki, "*Əbədi sülh, daha doğrusu, adətən əbədi sülhün bünövrəsi sayılan dövlətin beynəlxalq hüquqi quruluşu heç bir halda fantaziya və arzulara meyilli təxəyyülün yaratdığı xəyal deyil, ciddi, dərin, ən böyük ideya, müəyyən vəzifə, üstəlik, ağlın tələbi, qanun, nizam və əxlaq anlayışlarımızın vahid bəşəriyyətin möhtəşəm bütövlüyündə mütərəqqi inkişafının zəruri nəticəsidir*". Qəti şəkildə müharibəyə qarşı olan mütəfəkkir göstərir ki, "müharibələr olmamalıdır, çünki müharibələrdə müqəddəs hüquq təsadüf və özbaşınalığın mülkiyyətinə çevrilir.

Müəllif dünyada əbədi sülhün bərqərar olması üçün aşağıdakı təklifləri təqdim edir:

1. Birincisi, bütün millətlərin vahid şəkildə dövlətdə mütləq birləşməsidir ki, bunun nəticəsində ayrı-ayrı hökumətlərin mövcudluğundan irəli gələn bütün münaqişələr aradan qalxacaq.
2. İkincisi, onların mütləq təcrid olunması və ya bəzi dövlətlərin maraqları digərlərinin hüquqlarını pozmur.
3. Və nəhayət, üçüncüsü, bu xalqların yaratdığı müəyyən sosial varlığın təşkilatlanmasıdır ki, onun köməyi ilə tərəflər öz aralarındakı münaqişələri sülh yolu ilə həll etməlidir və başqa yolla həll oluna bilməz [8, s. 259-351].

Müharibənin gətirdiyi faciələr haqda yazan XVIII-XIX əsr mütəfəkkirləri sırasında Malinovskinin fikirləri xüsusi maraq doğurur. Malinovski Avropada müharibə və sülh məsələlərinə münasibətini bildirərək göstərir ki, "*müharibə cəmiyyətin ilk təməllərini, can və mal təhlükəsizliyini məhv edir. Qanunlar bir neçə bədbəxt qatil və oğrunu ölümlə cəzalandırır, lakin bu qanunların qoruyucuları olan xalqların hökmdarları müharibənin qarşısını ala bilməyib bütün dövləti qətlə və soyğuçuluğa məruz qoyurlar. Müharibədə*

*bir nəfər deyil, minlərlə insan həyatı itirilir, insanlar qarət olunur, bütöv kəndlər, şəhərlər düşmənlərin şikarına çevrilir*" [14, s. 365-387].

Mütəfəkkir göstərir ki, müharibələr yer üzərində insanların sayının azaldılması, beləliklə də, balansın saxlanması məqsədini daşıyır.

**Nəticə**

Ümumiyyətlə, qeyd edilməlidir ki, müharibə və sülh haqqında araşdırmalar aparan müəlliflər müharibələrin tarixini təhlil edərək onların sosial mahiyyətini açmağa çalışırlar. Müharibə və sülh dövrlərinin müqayisəli analizini təqdim edərək, göstərməyə çalışırlar ki, dövlətlərin ittifaqının yaradılması, onların müharibəyə qarşı apardıqları birgə iş həyat keyfiyyətinin yüksəlməsinə, iqtisadiyyatın tərəqqisinə səbəb ola bilər. Onu da vurğulamaq lazımdır ki, XVIII-XIX əsrlərdə ideya kimi irəli sürülən Avropa İttifaqının XXI əsrdə reallaşdırımasının nəticələri mütəfəkkirlərin ilkin düşüncələrinin təsdiqi kimi nəzərə çarpır. Avropa İttifaqı ölkələrinin yüksək inkişaf səviyyəsi artıq yüz ilə yaxın bir müddətdə bu ərazilərdə müharibələrin aparılmaması və II Dünya müharibəsindən sonra və ya post-müharibə dövründə savaşa deyil, sülhün bərqərar olmasına və əhalinin sosial rifahının yüksəldilməsinə qoyulan sərmayələrlə bağlıdır.

## ƏDƏBİYYAT


1. Ahmet Kamil Cihan. Farabinin savaş teorisi // Diyanet İlmi Dergisi. Cilt 52, Sayı 1, 2016, s.167-180
2. Аквинский Ф. Сумма теологии. Часть II-II. Вопросы 1-46. К.: Ника-Центр, 2011, 576 с.
3. Андронов И.Е. Себастьян Франк как историк Церкви. // Вестник Томского государственного университета. История, 2014, № 5 (31), с. 98-102
4. Аристотель. Политика. М.: АСТ, 2010, 400 с.
5. Бентам И. План всеобщего и вечного мира. // Трактаты о вечном мире / Сост. И. С. Андреева и А. В. Гулыга. – СПб.: Алетейя, 200, 398 с.
6. Блаженный А. О граде Божием. Киев: УЦИММ-пресс, 1998. Т. 3, Кн. 1-13, 595 с.
7. Гердер И. Письма для поощрения гуманности. //Трактаты о вечном мире / Сост. И.С.Андреева и А.В.Гулыга. – СПб.: Алетейя, 2003, 398 с.
8. Генц Ф. О вечном мире // Трактаты о вечном мире. СПб.: Алетейя, 2003, 398 с.
9. Гёррес И. Всеобщий мир – идеал / Трактаты о вечном мире. СПб.: Алетейя, 2003, 398 с.
10. Гефнер О.В. Феномен войны в осмыслении европейской философии Нового времени // Электронный научно-методический журнал Омского ГАУ, 2020, №1 (20) январь - март (http://ejournal.omgau.ru/images/issues/2020/1/00809.pdf. - ISSN 2413-4066)
11. Гуторович О.В., Машукова Е.Ю. Этатизация войны и проекты вечного мира (https://cyberleninka.ru/article/n/etatizatsiya-voyny-i-proekty-vechnogo-mira с.165-176)
12. Кант И. К вечному миру // Трактаты о вечном мире. СПб.: Алетейя, 2003, 398 с.
13. Макиавелли Н. Избранные произведения. М.: Художественная литература,1982, 121 с.
14. Малиновский В.Ф. Рассуждение о мир е и войне // Трактаты о вечном мире. СПб.: Алетейя, 2003, 398 с.
15. Пенн В. Опыт о настоящем и будущем мире в Европе (https://www.vostlit.info /Texts/Dokumenty/Engl/XVII/1680-1700/William_Penn/text1.htm)
16. Платон. Федон / Платон. Собр. соч.: в 4 т. М.: Мысль. Т. 2.,1998, 528 с.
17. Руссо Ж.Ж. Суждение о вечном мире // Трактаты о вечном мире СПб.: Алетейя, 2003, 398 с.

18. Роттердамский Э. Жалоба мира. Оружие христианского воина. М.: Директ-Медиа, 2009, 303 с.
19. Orend B. The Morality of War. N.Y.: Broadview Press, 2006, 289 p.
20. Rosenthal E.I.J. Averroes' Commentary on Plato's Republic // Philosophy, 1958, Vol. 33 (124), pp.76-77
21. Торчинов Е.А. Даосизм. Опыт историко-религиоведческого описания. СПб., 1993, с. 138-139.

***Резюме***

***Зумруд Гусейнова***

***Социология пост-военнего времени или мира***

Особое значение имеет изучение войн, характеризуемых как непрерывная деятельность человеческого общества на социологических основаниях. Таким образом, человечество, которое ставит главной целью улучшение социального благосостояния, ради этой цели ведет войны и конфликты, обрекая сотни тысяч жизней людей, сотни государств и обществ на нищету и разрушение.

Социологическое исследование войны и послевоенного или мирного времени требует рассмотрения исследований, связанных с этими концепциями.

Послевоенный период – это восстановление разрушенной экономики, установление новых общественных отношений с учетом военного опыта, восстановление политической безопасности и политических отношений и т. д. Сторона, которая выигрывает войну, также является стороной, которая понесет больше всего потерь. Возрождение экономики, пришедшей в упадок в результате войны, требует больших финансовых средств и капиталовложений. С другой стороны, особого внимания требуют уязвимые социальные группы, такие как мигранты и участники войны, которые образовались в результате войны и расширились в масштабах. Послевоенный период – это период повышенной чувствительности общества в целом. В этом обществе более бунтарское отношение ко всем событиям и процессам, происходящим в стране. Наряду с регулированием внутренней социальной политики послевоенное правительство пытается определить свое место в международных политических отношениях, укрепить и расширить свои связи.

Указанные проблемы делают актуальным привлечение послевоенного периода к специальным научным исследованиям.

Изучение феномена войны и ее социальных и политических последствий имеет давнюю историю. Мыслители и мыслители воюющих стран проанализировали социологические основы предотвращения войн, определения новых направлений общественно-политического развития в послевоенный период, концепции мира, безопасности и справедливости. Изучение первичных исследований войны может обеспечить основу для рассмотрения, понимания и, следовательно, формулирования стратегических подходов к современной войне и послевоенным условиям.

Стратегия послевоенного периода, которая будет учитывать возможности современного международного развития, сможет несколько смягчить противоречия этапа преодоления трудностей, присущих этому периоду, и помочь определить новые направления прогресса.

***Ключевые слова:*** *социальная история, война, послевоенное время, мир, социальное обеспечение, справедливость, справедливая война, несправедливая война.*

***Summary***

***Zumrud Huseynova***

***Sociology of Post-war or Peace***

The study of wars characterized as a continuous activity of human society on a sociological basis is of particular importance. Thus, humanity, which makes the improvement of social well-being the main goal, conducts wars and conflicts for this purpose, condemning hundreds of thousands of people's lives, hundreds of states and societies to poverty and destruction.

A sociological study of war and post-war, or peacetime, requires a look at research related to these concepts.

The post-war period is the restoration of the destroyed economy, the establishment of new social

relations based on the war experience, the restoration of political security and political relations, etc. The side that wins the war is also the side that will suffer the most losses. Reviving an economy that has fallen into disrepair as a result of the war requires large financial resources and capital investments. On the other hand, vulnerable social groups, such as migrants and war veterans, who were created and expanded as a result of war, require special attention. The post-war period is a period of increased sensitivity of society as a whole. This society has a more rebellious attitude towards all events and processes taking place in the country. Along with regulating domestic social policy, the post-war government is trying to determine its place in international political relations, strengthen and expand its ties.

These problems make it urgent to involve the post-war period in special scientific research.

The study of the phenomenon of war and its social and political consequences has a long history. Thinkers and thinkers from the warring countries analyzed the sociological foundations of preventing wars, defining new directions for socio-political development in the post-war period, and the concepts of peace, security and justice. Studying primary research on war can provide a basis for considering, understanding, and therefore formulating strategic approaches to modern warfare and post-war conditions. A strategy for the post-war period, which will take into account the possibilities of modern international development, will be able to somewhat soften the contradictions of the stage of overcoming the difficulties inherent in this period and help identify new directions for progress.

**Keywords:** *social history, war, post-war, peace, social welfare, justice, just war, unjust war*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Talışlı Siyavuş Murtuza oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.